

Taleh Cəfərov

*ADPU-nun Ümumi tarix və tarixin tədrisi texnologiyası kafedrasının baş müəllimi, tarix üzrə fəlsəfə doktoru*

# Şərqi Türküstan Türklərinin milli-azadlıq mübarizəsi

## (XIX-XX ƏSRLƏR)

(əvvəli ötən sayımızda)

***Bu xəbər Türkiyəyə teleqrafla bildirilərək dəstək istənmiş, Hindistan, Əfqanıstan və Avropaya təmsilçilər göndərilmişdir. İngiltərə Hindistan və digər müstəmləkələrindən ehtiyatlanaraq yeni yaranmış müstəqil uyğur dövlətini tanımaqdan vaz keçmiş, Rusiya soyuq davranmış, Türkiyənin Xarici İşlər naziri Tevfik Rüstü Aras isə "SSRİ ilə qonşu olan dövlətlər hər şeydən əvvəl bu dövlətlə yaxşı davranmalıdır" kimi bəyanatla çıxış etmişdir.***

***Dövlət başçısı Xoca Niyaz Hacı cəsur olduğu qədər cahil və etibarsız şəxs olduğundan ruslarla 25 fevral 1934-cü ildə bir müqavilə imzaladı. Hökumət isə 2 mart tarixində bu müqaviləni tanımadığını elan etdi. Yaranmış fürsətdən istifadə edən SSRİ hərbi dəstə göndərərək baş nazir Sabit Damollanı yaxalayaraq edam etdirdi. Müdafiə naziri Mahmud Mihitti sovetlərin sui-qəsd planından qurtularaq Hindistana sığındı. 3 noyabr 1934-cü ildə Ma Cun Yının komandanlıq etdiyi Çin ordusu Hacı Xoca Niyazın rəhbəri olduğu dövlətin hərbi birləşmələrini məğlub edərək respublikanın varlığına son qoydu. Bu tarixdən 1943-cü ilə qədər general Şin Si Say böyük bir "təmizlik" işləri həyata keçirdi. O, rusların almanlarla mücadiləsini fürsət bilərək gizli şəkildə Çan Kay Şi hökuməti ilə razılığa gəldi. Bunun nəticəsində 1943-cü ildə Çin silahlı qüvvələri Şərqi Türküstana daxil oldu.***

Çin hökuməti Şin Si Sayı vəzifəsindən azad edərək yerinə general U-Cinq Şini genel vali təyin etdi. 1944-cü ildə Şərqi Türküstan türkləri İli bölgəsində də təzyiqə məruz qaldı. Nəticədə 21 sentyabr 1944-cü ildə Əli Xan Törənin rəhbərliyi ilə İlidə geniş xalq kütlələrinin iştirakı ilə üsyan baş verdi. Faşizm üzərində qələbə qazanan sovet hökuməti üsyançılarabu və ya digər formada dəstəyini davam etdirdi. SSRİ-nin səyləri nəticəsində 7 oktyabr 1944-cü ildə mərkəzi Kulca olmaqla Tarbaqatay və Altay vilayətlərindən ibarət Şərqi Türküstan Respublikası yaradıldı.Yeni qurulmuş dövlətin hərbi birləşmələri Çin ordusuna qarşı ilk döyüşlərdə parlaq qələbə qazandı. Ancaq Qərbi Türküstanda da buna bənzər hadisələrin başvermə ehtimalından qorxuya düşən sovet hökuməti dəstəklədiyi Şərqi Türküstan hökumətini Çin ilə təcili müqavilə imzalamağa məcbur etdi. 14 noyabr 1945-ci ildə Çin ilə Şərqi Türküstan hökumətləri arasında keçirilən görüşlərin davam etdiyi bir vaxtda türk heyətinin rəhbəri Əhmədcan Qasıminin sovet agenti olduğu müəyyən edildi. Uzun sürən danışıqlardan sonra Çin və Şərqi Türküstan hökumətləri arasında 12 temmuz 1946-cı ildə müqavilə imzalandı. Müqavilənin şərtlərinə görə:

1. Türküstan hökuməti 15-i Şərqi Türküstanlı və 10-u çinli olmaqla 25 nəfər-dən qurulacaqdır;
2. Məhəlli idarə vəzifələrinə yerli xalq tərəfindən seçilmiş nümayəndələr təyin ediləcəkdir;
3. Parlament azad seçkilər əsasında formalaşacaqdır;
4. Bütün məhbuslar azad ediləcəkdir;
5. Türk və Çin dilləri paralel şəkildə işlənəcək, ancaq rəsmi təhsil dili türcə olacaqdır;
6. Şərqi Türküstanın yeni hökuməti, İli, Altay və Tarbaqatay bölgələrinə yerləşdirmək üçün 12 min əsgər göndəriləcəkdir;
7. Şərqi Türküstan mədəni, iqtisadi və daxili siyasət baxımından müstəsna hüquqları toxunulmaz qalması şərti ilə Çin dövlətinə tabe olacaqdır.



***Bu müqavilədən sonra baş vali U-Cunq Şinin rəhbərliyi ilə yeni hökumət formalaşdırıldı, sovet agenti olduğu müəyyən edilən Əhmədcan Qasimi yeni hökumət rəhbərinin vəkili təyin edildi. 1947-ci ilin ilk aylarında üç türküstanlı –Məsut Səbri genel vali, İsa Yusuf Alptekin genel sekretar və Canım Xan Hacı maliyyə naziri vəzifələrinə təyin edildilər.1 yanvar 1949-cu ildə vəzifəsindən azad edilən Məsud Səbri hökumətin İrandakı səfiri olmaqdan imtina etmiş, 5 nisan 1951-ci ildə də həbs edilmişdi. Yerinə general Çanq sekretar, Mehmet Əmin Buğra da vəkil təyin edildi.***

1943-cü ildə Kuçunqda maldarlıqla məşğul olan əhalini qovub yerinə çinli əkinçiləri köçürmüşlər. Milliyətçi Çin hökuməti burada 150 min uyğuru qətlə yetirmiş, 1 milyon çinlini Şərqi Türküstana köçürməyi planlaşdırmış, lakin Çin kommunistlərinin müharibəyə qoşulması ilə plan icra edilməmişdi. Lakin daha sonra kommunistlər tərəfindən plan həyata keçirilmişdir. Kommunistlər Çində Sovet dövləti modelində bir ittifaq dövləti yaratmağa təşəbbüs etmişdilər. Hətta Maoutzedun doğulduğu Hunan əyalətinin 1910-1920-ci illərdə müstəqilliyinə can atmış, Çinin 27 dövlətə ayrılmasının vacibliyini qeyd etmişdir. 1922-ci ilin iyun ayında keçirilən Çin Kommunist Partiyasının II qurultayında könüllü federasiya ideyası irəli sürülmüş, ideyanın təməlində Monqol, Tibet, Uyğur bölgələri ilə birlikdə Çin Federasiya Respublikasının yaradılacağı elan edilmişdir. 1931-ci ilin oktyabr ayında ÇKP-nin I Beynəlxalq Sovet Təmsilçilər Məclisi Hazırlıq Komissiyasında "Çin Sovet Respublikası Konstitusiyasında millətlərin öz müqəddəratının təyin etmək hüququnun qəti şəkildə tanınacağı və yerinə yetiriləcəyi, Monqol, Uyğur və Tibet kommunistlərinin dövlətdən ayrılma haqlarının tanınacağı, bu millətlərin Çin Sovet Federasiyasına qatılma və ya müstəqilliklərini elan etmədə tamamilə müstəqil olduqları ifadə edilmişdir. 1949-cu ildə kommunistlər birdən-birə verdikləri vədlərdən imtina etdilər. ***Çin kommunistləri iqtidarı ələ keçirdikcə milli azlıqlara zülmetməkdə günahlandırdıqları Milliyyətçi Çin (Homindan) iqtidarının assimilyasiya siyasətini mənimsədilər. Homindançıların planlarını sonralar kommunistlər həyata keçirdilər. Burada cəd-vəlləri ver. Bu rəqəmlərə Çin idarəçiliyinin Şərqi Türküstandakı ordusuna mənsub əsgərlərin sayı daxil deyildir. Bu orduya mənsub əsgərlərin sayı 1995-ci ildə 2.287.896 nəfər olub Şərqi Türküstan əhalisinin 13,8%-ini təşkil etmişdir. Dolayısıyla çinli əhali Şərqi Türküstanın ümumi əhalisinin təxminən 54,2%-ini təşkil etməkdəydi.***




Göründüyü kimi, Çin kommunistləri 1950-ci illərdən etibarən Şərqi Türküstana çinli əhalini köçürtməklə bölgənin demoqrafiq vəziyyətini ciddi şəkildə dəyişmiş, uyğur türklərini Vətənlərində milli azlıq durumuna gətirmişdir. Köçürülmə ilə paralel Çin hökiməti tərəfindən uyğur türkcəsinin rəsmi dairələrdə işlədilməsinin qarşısının alınması, əlifba dəyişdirilməsi, Çin dilində təhsil, dini ibadətin qadağan edilməsi kimi müxtəlif addımlar atılmışdır. Xüsusilə Mau Tsedun dövründə (1949-1976) islam dini ölkə ərazisində qadağan edilmiş, məscidlər bağlanmış, ona qarşı savaş elan edilmişdir. Prosesin davamı kimi, məscidlər dağıdılır, alimlər edam cəzasına məhkum edilirdilər. Qeyd edək ki, Mao dövründə tamamilə bağlanmış və Den Siyo Pin dövründə yenidən açılan məscidlər, 1990-cı illərdən etibarən Jianq Zəmin dövründə yenidən bağlanmışdır. Soyuq müharibə illərində çinlilər müxtəlif üsullarla Şərqi Türküstan türklərinin kökünü kəsməyə çalışsa da, bunu müvəffəq olmadı. ÇXR 1949-cu ildə Şərqi Türküstanı işğal etdikdə uyğurlar əhalinin 80%-ini təşkil edirdi. Digər türklər –qazaxlar, qırğızlar, və özbəklər də daxil olmaqla bölgə əhalisinin 90%-ini türklər təşkil edirdi. Lakin 50-ci illərdən sonra kütləvi şəkildə Şərqi Türküstana köçürülən xui adlanan çinlilər arasında hər il təxminən 8%-lik artım qeydə alınmaqdadır. Qeyd edək ki, Şərqi Türküstan ərazisinin hər km-nə 5 nəfər əhali düşdüyü halda, Çin ərazinin hər km-nə isə 160 nəfər düşür.

1980-ci ildən sonra Çin dünyaya inteqrasiya olunmağa başladı. Bəhs olunan dövrdə Çin hökuməti Şərqi Türküstanın etnik mənzərəsini öz xeyrinə dəyişmək məqsədilə buraya çinli əhalini kütləvi şəkildə köç etdirdi. Çin bölgəni "inkişaf etdirmək" məqsədilə əslində çirkin əməllərini həyata keçirməyə çalışırdı. 1983-cü ildə Şərqi Türküstana səfər edən Çin baş naziri Zao Ziyanq və ÇKP-nın keçmiş baş katibi XuYo Banq istəklərini açıq şəkildə bəyan etdilər. Bu plan külli miqdarda vəsait, çoxlu sayda elm və iş adamı tələb etdiyi üçün Şərqi Türküstan KP baş katibi Vanq Enmao 1985-ci ilin noyabr ayında ABŞ-a səfər etdi. Enmao 14 yanvar 1985-ci il tarixində bu ölkənin ən nüfuzlu qəzetlərindən olan "Vaşinqton Post"a verdiyi açıqlamasında "Şərqi Türküstan XX əsrin sonlarında sənaye və kənd təsərrüfatı sahəsində mövcud gəlirlərin beş qatını əldə etmək məqsədilə böyük ölçüdə Çindən gələcək bacarıqlı işçilərə və texniki heyətə ehtiyac duyur. Əyalət onları bölgəyə cəlb etmək məqsədilə müxtəlif təşviqat işləri aparmaqdadır. Bölgəyə gələcək universitet məzunları dərhaləmək haqqlarında yüksək artımı hiss edəcək, həmçinin üç ildə bir yaşayış səviyyələrinin yüksəldiləcəyini qeyd edirdi.

***Bu gün Şərqi Türküstan coğrafiyası 1.644.000 kv. km-lik əraziyə malik olmaqla Mərkəzi Asiyada Qazaxıstandan sonra ikinci ən böyük ölkə hesab olunur. Ərazisinə görə Türkiyədən iki, Fransadan dörd dəfə böyük olub, Çin torpaqlarının 1/6-ini təşkil edən Şərqi Türküstan türkcə danışan uyğurların və qazaxların, qırğız, özbək, tatar və taciklər kimi Mərkəzi Asiya xalqlarının yurdudur.Ərazisində Tanrı, Altay, Pamir dağları ilə yanaşı,dünyanın ən böyük çöllərindən olan Təkləməkan çölü yerləşir.***

*Çin kommunistləri iqtidarı ələ keçirdikcə milli azlıqlara zülmetməkdə günahlandırdıqları Milliyyətçi Çin (Homindan) iqtidarının assimilyasiya siyasətini mənimsədilər. Homindançıların planlarını sonralar kommunistlər həyata keçirdilər. Burada cəd-vəlləri ver. Bu rəqəmlərə Çin idarəçiliyinin Şərqi Türküstandakı ordusuna mənsub əsgərlərin sayı daxil deyildir. Bu orduya mənsub əsgərlərin sayı 1995-ci ildə 2.287.896 nəfər olub Şərqi Türküstan əhalisinin 13,8%-ini təşkil etmişdir. Dolayısıyla çinli əhali Şərqi Türküstanın ümumi əhalisinin təxminən 54,2%-ini təşkil etməkdəydi*

(ardı gələn sayımızda)